| | |
|---|---|
| İsbatov İlqar Aydın oğlu |  |

Azərbaycan Respublikası Memarlar İttifaqının Şəhərsalma üzrə komissiyasının sədri **İsbatov İlqar Aydın oğlu** 1964-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1981-ci ildə Azərbaycan Mühəndis İnşaat institutunun Memarlıq fakultəsinə daxil olmuşdur. 1984-cü ildən təhsilini Moskva Memarlıq İnstitutunun Şəhərsalma fakultəsində davam etdirmiş və 1987-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir.

21 aprel 1987-ci ildə Bakı Dövlət Layihə İnstitutunun Baş Plan emalatxanasında memar vəzifəsində əmək fəaliyyətinə başlamışdır. 1998-ci ildən "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunda baş memar, 2008-ci ildən Bakı Dövlət Layihə İnstitutunun direktorudur. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2019-cu il tarixli Sərəncamı ilə İlqar İsbatov Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini vəzifəsinə təyin edilib.

100-dən artıq memarlıq layihəsinin müəllifidir: FHN Akademiyasının təhsil korpusu, 18, 41, 132-134 saylı məktəblərin yenidənqurulması, Qəbələ İcra Hakimiyyətinin inzibati binası, XİN işçiləri üçün M.İbrahimov küçəsində yüksəkmərtəbəli yaşayış evi, Moskva prospektində yüksəkmərtəbəli çoxfunksiyalı binanın layihəsi və s.

1993-cü ildən Azərbaycan Memarlar İttifaqının üzvüdür. 2008-ci ildə "Ustad Memar" yüksək peşəkarlıq sertifikatı ilə təltif edilimişdir. 2010-cu ildə "Tərəqqi" medalı ilə təltif edilmiş, 2012-ci ildə "Azərbaycanın Əməkdar memarı" fəxri adına layiq görülmüşdür. 2017-ci ildə Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professoru seçilmiş, Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2017-ci il tarixli Sərəncamına əsasən, Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edilmişdir.